# Mədəniyyətimin beşiyi Gəncə

## Gəncə Dövlət Milli Dram Teatrının yaradıcılıq yoluna nəzər salarkən



Hələ XIX əsrin sonlarında Gəncədə həvəskarlardan ibarət teatr truppası fəaliyyət göstərirdi. 1895-ci ildə yerli həvəskarlar Mirzə Fətəli Axundzadənin "Hacı Qara" pyesini tamaşaya qoymağa müvəffəq oldular. 1898-ci ildə göstərilən "Müsyöjordan və Dərviş Məstəli şah" tamaşasında Gəncənin istedadlı gəncləri öz səhnə bacarıqlarını göstərə bilmişlər. 1906-cı ildə Gəncə Müsəlman Dram məclisi adlı 38 nəfərdən ibarət truppa təşkil edilmiş və bu truppaya rəhbərlik isə Ələsgər bəy Xasməmmədova tapşırılmışdır.

*(Əvvəli ötən sayımızda)*

Məlumdur ki, böyük Türk dramaturqu Nazim Hikmət 1951-ci ildən SSRİ-də yaşamış və onun əsərlərinin bütün Sovet İttifaqında təbliği dövlət səviyyəsində müvafiq təşkilatlara, həmçinin teatrlara tövsiyyə olunmuşdur. Hətta 20 mart 1953-cü ildə Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının səhnəsində Əkbər Babayevin çevirməsində Ədil İsgəndərovun quruluşunda "Türkiyədə" əsərinin premyerası ictimaiyyətə təqdim edilmişdir. Daha sonra 1956-cı ildə "Qəribə adam" və 1960-cı ildə isə "Şöhrət və ya unudulan adam" pyesləri Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının səhnəsində səhnəyə qoyulmuşdur. 1957-ci ildə isə Respublikanın Xalq artisti Məhəmməd Burcəliyevin təklifi ilə Gəncə Dövlət Milli Dram Teatrının səhnəsində Nazim Hikmətin 3 pərdəli, 14 şəkildən ibarət olan "Kəllə" faciəsi hazırlanmışdır. Tamaşanın ictimai baxışı 14 may 1957-ci ilə təsadüf edir. Xatırladım ki, faciənin türkcədən çevirəni İslam İbrahimov, quruluşçu rejissoru Hüseyn Sultanov, tərtibat rəssamı Süleyman Hacıyev, geyim rəssamı Bəhram Əfəndiyev, rejissor assistenti isə Məhəmməd Burcəliyev olmuşdur. 1957-ci ildə məhz "Kəllə" faciəsinin tamaşasına baxmaq üçün böyük Nazim Hikmət Gəncəyə gəlmiş və çox böyük təəsüratla tamaşaya baxaraq yüksək fikir söyləyərək kollektivdən ayrılmışdır.

Məcid Şamxalovun 4 pərdəli, 7 şəkildən ibarət olan "Qaynana" komediyası ilk olaraq Azərbaycan teatr ictimaiyyəti tərəfindən çox zəif bir pyes kimi səciyyələndirilərək səhnəyə qoyulmasının mümkünsüzlüyü bildirilirdi. İlk dəfə olaraq bu pyesə məhz 26 iyun 1957-ci ildə Gəncə Dövlət Milli Dram Teatrında rejissor, Respublikanın Əməkdar İncəsənət xadimi Həsən Ağayevin müraciət etməsi ilə Azərbaycan teatrında cəsarətli addımın atılması həmin pyesin uğurlu səhnə həyatı yaşamasının qarantına çevrilə bilib. Azərbaycan səhnəsinin ilk Qaynanası-Cənnət arvad obrazını isə Gürcüstan Respublikasının Əməkdar artisti Reyhan Tağıyeva ifa edib. Qeyd etmək lazımdır ki, məhz Həsən Ağayevin bu komediyaya müraciətindən sonra Məcid Şamxalovun 4 pərdəli, 7 şəkildən ibarət olan "Qaynana" komediyası Azərbaycan teatrlarında səhnəyə qoyulmağa başlayıb və bu pyesin motivləri əsasında ssenari müəllifləri Əjdər İbrahimov və Marqarita Maleyeva olan, quruluşçu rejissoru Hüseyn Seyidzadə, quruluşçu operatoru Fikrət Əsgərov, quruluşçu rəssamı Nadir Zeynalov və bəstəkarı Tofiq Quliyev olan "Qaynana" bədii filmi 1978-ci ildə ekranlara çıxıb.

Gəncə Dövlət Milli Dram Teatrı və onun yaradıcı kollektivi bu gün də fəaliyyətini uğurla davam etdirir. Belə ki, 2002-ci ildə teatrın səhnəsində tamaşaya qoyulan İ. Əfəndiyevin "Mahnı dağlarda qaldı" tamaşası Azərbaycan Teatr Xadimləri İttifaqının təsis etdiyi "Qızıl Dərviş" mükafatının "Qran Pri" nominasiyasına layiq görülüb. 2007-ci ildə teatrın baş rejissoru İradə Gözəlovanın tamaşaya hazırladığı İ. Əfəndiyevin "Qəribə oğlan" pyesi "Gənc rejissorların teatr festivalı"nda, 2010-cu ildə isə yaradıcı kollektiv Elçinin "Ölüm hökmü" tamaşası ilə "Respublika teatr festivalı"nda uğurla çıxışlar edib. Daha sonra 2011-ci ildə Türkiyə Cümhuriyyətinin Giresun şəhərində keçirilən "Uluslararası XVII Aksu Tiyatro Festivalı"nda T. Cücenoğlunun "Gözəlçələr" pyesinin tamaşası ilə, 2011-ci ildə Azərbaycan Teatr Xadimləri İttifaqının keçirdiyi "2+1" Eksperimental Tamaşalar Festivalında Kamal Abdullanın "Sərgərdan" pyesinin tamaşası ilə, 2012-ci ildə "Tuganlıq 2012" Türkdilli Dövlətlərin Beynəlxalq Teatr Festivalında, 2013-cü ildə Türkiyə Cümhuriyyətinin Konya şəhərində "Bin ses bir nefes" Uluslararası Teatr Festivalında uğurla çıxışları olub. 2013-cü ildə Gəncə Dövlət Dram Teatrı növbəti uğura imza ataraq Ukraynada keçirilən "Klassika bu gün" Beynəlxalq Teatr Festivalında rejissor İradə Gözəlovanın quruluşunda N. V. Qoqolun "Evlənmə" pyesinin tamaşası festivalın "Ən yaxşı kişi rolu" nominasiyası ilə Podkolyosin rolunun ifaçısı respublikanın əməkdar artisti İlham Hüseynov təltif edilib. 2014-2015-ci illərdə Gəncə Dövlət Dram Teatrı Türkiyənin Giresun şəhərində xalq artisti Vaqif Şərifovun quruluşunda Elçinin "Qatil" və mərhum əməkdar artist Faiq Qasımovun quruluşunda Xəzangülün "Məhəbbətin qənimi" pyeslərinin tamaşaları ilə Uluslararası Teatr Festivallarının iştirakçısı olub. 2015-ci ildə "20.Uluslararası Ankara Tiyatro Festivalı"na dəvət olunan Gəncə Dövlət Dram Teatrının gənc rejissoru Elşad Əhmədov "Azərbaycan Teatr Poetikası" adlı iki günlük seminar-məşğələ ilə çıxışlar edib. Həmçinin 2015-ci ildə teatrın baş rejissoru İradə Gözəlovanın quruluşunda C. Məmmədquluzadənin "Dəli yığıncağı" pyesinin tamaşası Bakı qastrolunda teatr ictimaiyyəti tərəfindən maraqla qarşılanaraq ilin yekununa görə ən uğurlu səhnə əsəri kimi qəbul olunub. 2017-ci ildə Türkiyə Cümhuriyyətinin Merzifon Bələdiyyəsi tərəfindən təşkil olunan "3.Uluslararası Tiyatro Festivalı"nda Əli Əmirlinin "20 ildən sonra" pyesinin tamaşası quruluşçu rejissor, respublikanın əməkdar artisti Novruz Cəfərovun quruluşunda maraqla qarşılanıb və yaradıcı kollektiv xüsusi mükafata layiq görülüb. Yaradıcı kollektiv 2018-ci ilin may ayında qardaş Türkiyə Cümhuriyyətinin Giresun şəhər Bələdiyyəsinin təşkil etdiyi Uluslararası Beynəlxalq Teatr Festivalında gənc rejissor Elşad Əhmədovun hazırladığı T. Cücenoğlunun "Matruşka" pyesinin tamaşası ilə iştirak edib. Həmçinin 12-19 may 2018-ci ildə "Sərhədsiz teatr" III-Şəki Beynəlxalq Teatr Festivalı Milli Proqramı çərçivəsində baş rejissor İradə Gözəlovanın quruluşunda C. Məmmədquluzadənin "Dəli yığıncağı" komediyası ilə teatrsevərlərin qarşısında maraqla qarşılanan iştirakları olub. Eləcə də 05-15 iyul 2018-ci ildə Gürcüstan Respublikasının Özürgeti Dövlət Dram Teatrının təşkilatçılığı və dəvəti ilə Beynəlxalq Teatr Festivalında yenə də rejissor İradə Gözəlovanın quruluşunda N. Dumbadzenin "Hellados" pyesinin tamaşası ilə çıxış edən kollektiv teatr ictimaiyyətinin alqışları ilə qarşılanıb. Qeyd etmək lazımdır ki, yaradıcı kollektivimiz bu festivallardan da xüsusi nominasiyalarla geriyə dönüb.

Qeyd etmək lazımdır ki, bütün sadalananlarla yanaşı Gəncə Dövlət Milli Dram Teatrının son üç ildə də uğurları, əldə etdikləri naliyyətləri var. Belə ki, yaradıcı kollektiv 19-20 may 2022-ci ildə Bakı şəhərində qastrol səfərində olaraq Nüşabə Əsəd Məmmədlinin "Cavad xan " tarixi dramı, 10-16 dekabr 2022-ci il tarixlərində Azərbaycan Teatr Xadimləri İttifaqının təşkilatçılığı ilə keçirilən Milli Klassika Festivalında Hüseyn Cavidin "Ana" dramı ilə və 27 may 2023-cü ildə isə yenidən Bakı şəhərində Ejen İoneskonun "Kral ölür" (absurd keçid) pyesinin tamaşası ilə çıxışlar etmişdir. Həmçinin yaradıcı kollektiv 16-20 may 2023-cü il tarixlərində Türkiyə Cümhuriyyətinin Trabzon şəhərində keçirilən Uluslararası Beynəlxalq Teatr Festivalında rumın əsilli Fransa dramaturqu Ejen İoneskonun "Kral ölür" (absurd keçid) pyesinin tamaşası ilə çıxış edib. Bu festivalda Respublikanın Əməkdar artisti Elxan Yunis ən yaxşı kişi obrazına görə xüsusi mükafata layiq görülüb.

Teatrın direktoru Aqil Bəhramlı son üç ildə beş Beynəlxalq Teatr festivalında münsiflər heyətinin üzvü kimi ölkəmizi təmsil edib. Bu il 2024-cü ilin 16-26 may tarixlərində isə Rumıniyanın Kraiova şəhərində keçirilən "V Şekspir Beynəlxalq Teatr Festivalı"na fəxri qonaq qismində dəvət olunub. Yaradıcı kollektiv rejissor Tural Mustafayevin quruluşunda hazırlanan E. İoneskonun "Kral ölür" pyesinin tamaşası ilə Portuqaliya və Litva Respublikalarında keçiriləcək iki Beynəlxalq Teatr Festivalına dəvət alıb. Eləcə də əhalinin müxtəlif təbəqələtinin estetik zövqünü, bədii anlamını formalaşdıran və onların bədii yaradıcılığa meyilinin oyanması istiqamətində fəaliyyətin artırılması və asudə vaxtın səmərəli təşkili, insanların ictimai mövqeyinin formalaşmasında yaxından iştirak etməklə ətraf rayonlarda müxtəlif vaxtlarda qastrol səfərlərində olmaqdadır.

Gəncə Dövlət Milli Dram Teatrında 2024-cü ilin repertuar planına uyğun olaraq baş rejissor, Prezident mükafatçısı Elşad Əhmədovun quruluşunda türkiyəli yazar Birgül Gülər Yaşıloğlunun "Qadınlar danışarsa" sosial dramı üzərində yaradıcılıq işləri artıq yekunlaşmaq üzrədir. Yeni hazırlanan pyesin teatrın kiçik səhnəsində yaxın günlərdə ictimai baxışının olacağı planlaşdırılır.

Teatrın bu gün yaradıcılıq planlarına nəzər salarkən qeyd etmək lazımdır ki, yaradıcı kollektiv bir sıra xarici teatrlarla muştərək layihələrin həyata keçirilməsini nəzərdə tutulur. Belə ki, Gəncə Dövlət Milli Dram Teatrının Gürcüstanın Özurgeti Dram Teatrı, Özbəkistanın Kattakurqan vilayət Dram Teatrı və Rumıniyanın Kraiova Milli Dram Teatrı ilə yaradıcılıq memorandumları mövcuddur. Buna əsasən, Özurgeti Dram Teatrının bədii rəhbəri Vasili Çikokidze 2025-ci ilin planına uyğun olaraq Gəncə Dövlət Milli Dram Teatrının səhnəsində Nodar Dumbadzenin "Kukaraça" hekayəsinin motivləri əsasında eyni adlı tamaşasını hazırlayacaq. Nəzərdə tutulan bu tamaşanın hər iki teatrın yaradıcı kollektivi ilə birgə layihə əsasında hazırlanması planlaşdırılır. Həmçinin Rumıniyanın paytaxtı Buxarest şəhərininin Milli Dram Teatrının bədii rəhbəri Feliks Aleksa ilə də danışıqlar aparılır.



Xüsusi olaraq qeyd etmk istərdim ki, mədəniyyət naziri, cənab Adil Kərimlinin müvafiq əmrinə əsasən teatrda yaradılan "İKİNCİ NƏFƏS" Teatr studiyasında da tədris prosesi uğurla davam etdirilir. Studiyaya qəbul edilən 20 nəfərdən ibarət olan gənclər bu gün teatrın tarixi ənənələrini öyrənməklə yanaşı həmçinin aktyor sənətinin sirlərinə eləcə də nəzəri biliklərə daha dərindən yiyələnə bilirlər.

16 may 2024-cü il tarixində isə Azərbaycan Respublikası Baş Nazirinin qərarı ilə Gəncə Dövlət Dram Teatrına "milli" statusu verilib. Yeni status uzun illərdir fəaliyyət göstərən, özünəməxsus sənət ənənələri olan Gəncə Dövlət Milli Dram Teatrında çalışan insanların maddi rifahının yaxşılaşdırılmasına eləcə də yaradıcılıq fəaliyyətinin daha da genişləndirilməsi istiqamətində böyük stimul olacaqdır. Hazırda teatrda maddi-texniki bazasının gücləndirilməsi, habelə bu sahədə institusional və məzmun dəyişikliyi istiqamətində işlər davam etdirilir.

**Anar Ərtoğrul Burcəliyev**
**Teatrşünas-tənqidçi**